**UOT: 060302.**

**Hürümələk Bayramova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: hurimelekbayramova1996@gmail.com**

# AZADLIQ EŞQİYLƏ YAŞAYAN VƏTƏNPƏRVƏR MAARİFÇİ – ƏHMƏD BƏY AĞAOĞLU

**Xülasə**: Əhməd bəy Ağaoğlu həyatı boyu Azərbaycan xalqının azad, hürr yaşaması üçün çalışmışdır. Onun müxtəlif vaxtlarda çap etdirdiyi məqalələri XIX əsrin sonu və XX əsrin əvvəlindəki Azərbaycanın ictimai-siyasi vəziyyətini öyrənmək üçün əsas mənbə rolunu oynayır. Ağaoğlu "Sözlər, sözlər" məqaləsində yerli müsəlman türk xalqını azadlığa səsləyir. Digər "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsində isə azərbaycanlılarla ermənilərin tarixi ədavəti haqqında əsl həqiqətləri bu məqalədə aydınlaşdırmağa çalışmışdır.

**Açar sözlər:** Əhməd bəy Ağaoğlu, türk, müsəlman, inkişaf, panislamist, pantürkist, erməni daşnakları, istiqlal.

Əhməd bəy Ağaoğlunun keçdiyi ömür yolu (1869-1939), yəni XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yalnız doğulduğu, mənsub olduğu torpaq, Azərbaycan üçün deyil, həmdə türk-islam dünyası üçün çalışan, fəaliyyət göstərdiyi hər bir sahədə istər ədəbi-mədəni, istərsə də ictimai-siyasi tarixində öz möhürünü vuran, dəsti-xətti ilə, üslubuyla layiqli yer tutan, bizim üçün fəxr məbədi olan ziyalı şəxsiyyətlərimizdən biridir. Ən əsası isə Azərbaycan və Türkiyə üçün çox işlər görmüşdür. Əhməd bəy Ağaoğlu türk dünyasının yetirdiyi son ensiklopedistlərdən biridir (3; s. 4).

Əhməd bəy Ağaoğlu haqqında türk yazıçıları və alimləri onun türk dünyası üçün gördüyü işləri belə qiymətləndirmişlər:

Müasir türk alimi Fəxrəddin Gülsevən: "O, heysiyyətli və möhtəşəm bir mütəfəkkirdir, mərd, cəsur və mübariz adam, professor və maarifçi, usta qəzetçi-yazar, dürüst siyasətçidir. Hürriyyət və demokratiya aşiqi bir insan, milliyyətçi və inqilabçı ziyalı, inanılmış və vəfalı dost, yaxşı ailə başçısı, şəfqətli atadır. Deyə bilərik ki, o, insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini öz simasında toplamış böyük insan, heykəlləşmiş şəxsiyyətdir" (3; s. 4).

Tanınmış türk yazıçısı Şükufə Nihal: "O, insanlığın az rastlaşdığı zənginliklərdən idi. Çalışqan, zəki, mübariz alim idi. Lakin mənim Ağaoğlunda əsl qiymət verdiyim cəhət xarekterinin möhtəşəmliyi idi. O, insan idi, kamil insan!"

Əhməd bəy Ağaoğlu islam birliyi və türkçülük məfhumunun yaranması və inkişafı sayəsində xidmətlərinə görə adı Cəmaləddin Əfqani və Ziya Göyalpın adlarıyla bir yerdə qeyd edilir (3; s. 4).

Əhməd bəy Ağaoğlunun bu ideyalarının yaratmasının və islam birliyi, türkçülük məfhumu üzrə mübarizə aparmasının əsas səbəb olan hadisələr hansılar idi?

Əhməd bəyə görə, antitürk, antiislam ideoloqların fikirləşdiyi kimi, türk və müsəlman olmaq "panislamist" və "pantürkist" olmaq deyildir. "Çünki panislamist demək, yəni cümlə müsəlmanları bir müsəlman dövlətin təxti-idarəsinə cəm etmək deməkdir. Pantürkizm demək də cümlə türkləri bir türk dövlətinin təxti-hökümətinə cəm etmək deməkdir. Əgər məna belə isə dünyada bir müsəlman, bir türk tapılmaz ki, belə xəyal ilə uğraşsın. Əgər tapılsa belə divanədir. Çünki müsəlmanlar və türklərin indiki halında belə fikirlərə alışmaq Don Kixot kimi yel dəyirmanı ilə vuruşmaq kimidir. İslam və Türk bu halda elə pərişan, elə məzlumdurlar ki, bu növ fikirlərə əsla belə yer vermirlər".

Əhməd bəy Ağaoğlu mətbuat fəaliyyəti dönəmində Rusiya İmperiyasının xalqımızı ruslaşdırma siyasətinə qarşı mübarizə aparırdı. "Hürriyyət, Müsavat, Ədalət!" şüarı ilə nəşr olunan "İrşad" qəzetində tutduğu mövqeyi belə açıqlamışdı: "Birincisi, rus idarəsinə qarşı mübarizə edərək türk anlayışının siyasi hüquqlarını müdafiə etmək, ikincisi isə, türklərin anlayışında birlik düşüncəsinin vacibliyini bildirmək. Həqiqətən də, Ə.Ağaoğlu həmin vaxtlarda çar idarəsinin, eləcə də marksist-leninçilərin türk xalqlarına qarşı həyata keçirdiyi ədalətsiz siyasətin üstünü açmağa çalışmış, bu yolda bir olmağı qeyd etmişdir" (4; s. 207-208).

O, müxtəlif vaxtlarda, müxtəlif qəzetlərdə yazdığı məqalələrlə həmin dövr haqqında geniş məlumat verir. Onun "Kaspi" qəzeti, 18 yanvar 1905-ci il, № 13 nəşr etdirdiyi "Sözlər, sözlər" məqaləsi o dövrdəki ab-havanı aydınlaşdırır (2; s. 302-305).

Əhməd bəy bu məqalədə bir çox mövzuya toxunmuşdur. "Müsəlmanların dostu" adıyla nəşr olunan məqaləyə cavab olaraq, bu məqaləni yazmışdır. "Müsəlmanların dostu" inkişafı və tərəqqi etməyi oxuculara çıxış yolu bildirmiş,

keçmişə hörmət bəsləməyi, məscidə gedib dua etməyi məsləhət vermişdir. Ancaq Ağaoğlu keçmişdə yaşayan ata və babalarımızın bir olub birləşmək əvəzinə paramparça olduqlarını, Rusiyanın Azərbaycanı işğal etdikdən sonra əcdadlarının əli-qolu bağlı oturaraq boyun əymə xislətlərini, acizliklərini yeni nəslə ötürdüklərini dilə gətirmişdi. Hətta yazdığı məqalədə əsl müsəlmanın necə olduğunu xalqa şərh etmişdir. Həqiqətən mütəfəkkir islam-türk birliyini açıq sözlərlə "Sözlər, sözlər" məqaləsində yazmışdır.

Digər "Bakı hadisələri haqqında həqiqət" məqaləsində isə azərbaycanlılarla ermənilərin tarixi ədavəti haqqında əsl həqiqətləri bu məqalədə gün işığına çıxarmağa çalışmışdır.

O, məqalədə qeyd edir ki, Qafqaz hakim dairələri erməniləri dəstəkləyir, hər işdə onlara tərəf çıxır və ruhlandırırlar. Bu şəraitdən ermənilər istifadə edərək məktəblər, qəzetlər, kitabxanalar, qiraətxanalar açır və xeyriyyə cəmiyyətləri yaradırdılar. Ancaq müsəlmanlara qarşı münasibət belə deyildi, müsəlmanlara qarşı şübhə və inamsızlığın ucbatından yerli türk-müsəlman xalqı cəhalət, zehni və iqtisadi yoxsulluğun ağır nəticələri ilə üzləşirdilər. Bunun ilk təzahürünü isə Zaqafqaziyada şəhər özünidarəsinin tətbiqi başlayanda ermənilərin sanki hər yerdə qanun və hüququn təsisçiləri kimi müsəlmanların sayının Dumada minimum olmasını istədilər. Bu da şəhər əhalisi arasında dostcasına münasibətin pozulduğunu aydınlaşdırır.

Həmçinin məqalədə Ağa Rəzi Babayevin 6 fevral tarixində qətlə yetirilməsi, cansız bədənə qarşı edilən vəhşicəsinə hərəkət və həyata keçirilən cinayətə görə onun böyük nüfuz sahibi qohumları tərəfindən sakit qarşılanmaması, beləliklə Bakıda erməni-müsəlman qırğınlarının səbəbi olmasından danışılır.

Qırğınları həyata keçirənlərin ermənilər olmasına baxmayaraq, ancaq yenə də ziyalılarımızın bu qırğınların qarşısını almaq üçün əllərindən gələni əsirgəmədiklərini, müsəlmanlardan İsmayıl bəy Səfərəliyev, Kərbəlayı İsrafil Hacıyev, Hacı Aslan Aşurov, Hacı Baba Aşurov, Kərbəlayı Abdullah Zərbəliyev, Həsənağa Həsənov və başqalarının qırğının getdikcə təhlükəli vəziyyətə gəldiyini görəndə həyatlarını təhlükə altına ataraq silahlı adamların müşayiəti ilə qubernatorun yanına getdiklərini qeyd edir.

Ancaq ermənilər bu hadisələrdən sonra qırğını özləri törətməyə başlamalarına baxmayaraq Rusiya mətbuatına və Avropa mətbuatına müsəlmanları qırğın törədən bir xalq olaraq tanıtmışdılar (2; s. 313- 321).

Əhməd bəy Bakıda törədilən erməni terrorçuluğunu açıq şəkildə bu məqalədə qeyd etmişdir. Yaranma səbəbini isə Rusiya imperiyasının xalqlar arasında qeyri-bərabər münasibət bəsləməsi, üstünlüyü ermənilərə verməsini qeyd edirdi. Sanki I Pyotrun verdiyi vəsiyyəti yerinə yetirirdilər. Azərbaycanın tarixi torpağında Erməni dövlətinin yaranmasına şərait yaradırdılar. Bu da Türkün gücündən qorxaraq planlaşdırılmış şəkildə atılan addımlardan biri idi. XX əsrin ortalarında Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edilməsi Rusiyanın keçmiş siyasi ənənəsi idi.

Azərbaycanlılara qarşı soyqırım siyasəti erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı surətdə həyata keçirilmişdir. Bu siyasətin mahiyyəti azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə bu ərazilərdə mifik "böyük Ermənistan dövləti" yaratmaq idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin müəyyən dairələrinin təhriki ilə yeridilən bu siyasət hərbi, ideoloji, mədəni, saxta "elmi" vasitələrlə davam etdirilmiş, tarixi faktların və arxiv sənədlərinin saxtalaşdırılmasından, dezinformasiyadan, dünya ictimai fikrinə ünvanlanmış bədii və psixoloji təsir metodlarından istifadə edilmişdir (7; s. 3).

Sonrakı dövrlərdə də Sovet Respublikasında bu hadisələrə rast gəlirik, ən əsası 1988-ci ildən davam edən "Dağlıq Qarabağ" üzərində ermənilərin torpaq iddialarının əsas mənbəyinin və nüvəsinin Əhməd bəy Ağaoğlunun bu məqaləsində qeyd etdiyi hadisələrdən doğduğunu görmək mümkündür.

Erməni daşnakları Azərbaycanlı ziyalılarımıza, xadimlərimizə qarşı siyasi yolla terror aktı həyata keçirirdilər. Əhməd bəy Ağaoğlu da 1905-ci il hadisələrindən agah olduğu üçün ona qarşı daşnak yazıçılar əsərlərində kinli münasibət bəsləyirdilər. Həmin əsərlər bunlardır: Emin Ter-Qirqoryanın 105 səhifəlik "Alov və qılınc", Aqoryanın "Göz yaşları dərəsi", Aterpetin "İmamət" əsərləri. Bu kimi əsərlər "Erməni daşnak yazıçıların" uydurma fantastik xəyal gücünü əks etdirən əsərlərdir. Həmin əsərlərdən birincisi tarixi şəxsiyyətlərimizin adlarını başqa adlarla təqdim etmişdir. Türk jurnalist kimi Şükür ağa (Əhməd bəy Ağayev), Hacı Əhməd ağa (türk qəzetinin xərcini çəkən milyonçu Hacı Zeynalabdin Tağıyev) və Mirzə Cabbar (Qafqaz Mətbuat Komitəsinin Şərq dilləri üzrə senzoru Mirzə Şərif Mirzəyevdir) (1; s. 136).

Bu ilk belə hadisə deyildi. Əhməd bəy "Bakı hadisələri haqqında həqiqət" məqaləsində ermənilərin Avropaya azərbaycanlı xadimlərin 1905-ci il qırğın-

ların törədilməsində əllərini olduğu yalanını yaydıqlarını qeyd edir. "Novosti" qəzetində çap edilən sənədlərdə Orlovskaya soyadlı bir şəxsin dili ilə belə ifadə edir ki, Fərrux bəy Vəzirov mənzilində erməniləri qırmaqdan ötrü qırğına qədər yığıncaqlar təşkil edirmiş. Bu yığıncaqlarda müsəlman, təbiət elmləri namizədi, müəllim publisist Məlikov və Musa Nağıyev iştirak etmişlər" (2; s. 313- 321).

Əhməd bəy Ağaoğlu milli istiqlalımız uğrunda mübarizə aparan vətənpərvər maarifçi olmuşdur. O, bu hadisələrə şahid olduqca, mütləq istiqlalımızın bərqərar olmasının vacibliyini hiss etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra isə parlamentdə millət vəkili kimi fəaliyyəti göstərmişdir. Ağaoğlu Azərbaycan Parlamentində ilk dəfə 1918-ci ilin dekabrın 26-da keçirilən 5-ci iclasında çıxış edib. O, çıxışında bu sözləri demişdi: "Azərbaycan istiqlalı bizim hamımızın başlıca amalımızdır. Hər bir öz şərəfini, öz amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır". O, çıxışında "hökumətin daxildən təsdiq edilməsi"nin, "Azərbaycanın Avropaya tanıdılması"nın vacibliyini qeyd edib" (5; s. 459-460).

Ə.Ağaoğlu özündən sonra elə bir miras qoyub getmişdir ki, biz həmin mirası qorumalıyıq və təbliğ etməliyik. O öz fəaliyyətini belə qiymətləndirmişdir: "Həyatım boyu yazdığım məqalələrin hamısı bir araya toplansa, Bakıdan İstanbula qədər geniş yol ortaya gələr". Əhməd bəy istər Azərbaycan, istərsə də Türkiyə siyasi həyatında silinməz izlər buraxmış görkəmli şəxsiyyətdir. Ömrü boyu qarşısına çıxan maneələr onu öz yolundan belə döndərməmiş, əksinə, fikirlərini həyata keçirməyə şövq etmişdir. Bizlər hamımız bu miras qarşısında borcluyuq. Borcumuzu isə onun əsərlərini toplayıb, mənimsəyib nəşr etdirməklə sonsuza qədər yaşatmaqla ödəyə bilərik (6; s. 187).

**Nəticə:** Əhməd bəy Ağaoğlu yaşadığı ömür boyu yalnız Azərbaycan xalqının deyil, bütöv türk-islam dünyasının inkişafına çalışmış böyük ensiklopedist şəxsiyyətdir. Ən çətin vaxtlarda – Azərbaycanın Çar Rusiyasının müstəmləkəsi olduğu zamanda, Rusiya İmperiyasının hər sahədə Azərbaycana məhrumiyyətlər, qadağalar qoyduğu bir dönəmdə Əhməd bəy Ağaoğlu bu maneələrə baxmayaraq fəaliyyət göstərdiyi hər sahədə Azərbaycanın istiqlalına, azad və hürr olmasına görə böyük işlər görmüşdür.

Onun "Sözlər, sözlər", "Bakı hadisələri haqqında həqiqət" məqalələrində məhz çətin, ancaq hər azərbaycanlının fəxr duyğusu keçirdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin" yaranmasına səbəb olan işartıları əks etdirən zamandan indiki

biz gənc tədqiqatçıları xəbərdar edir.

"Sözlər, sözlər" məqaləsində "Xanlıqlar dönəmində" atılan səhv addımlardan, xislətlərdən yaxa qutarmağa, yəni parçalanmaq əvəzinə bir olmağa, inkişafa və azad olmağa səsləmişdir. "Bakı hadisələri haqqında həqiqət" məqaləsində isə indiki dövrdə də Azərbaycanın aktual problemi "Erməni caniliyinə" aid əsl həqiqətləri öz gerçəkliyi ilə məqaləsində aydınlaşdırmışdır.

Bir sözlə, Əhməd bəy Ağaoğlunun hər bir sözü, məqaləsi, əsəri yaddaşlara həkk olunmalı, hər zaman tədqiqat obyekti olmalıdır. Çünki onun yazdığı hər bir mənbə özündə əsl tarixi faktları əks etdirir. Gənc tədqiqatçılar onun irsini öyrənməli, göz bəbəyi kimi qorumalı və gələcək nəslə gerçəkliyi ilə aşılamalıdırlar.

**Ədəbiyyat siyahısı:**

1. "Əhməd bəy Ağaoğlu". Tərtib edən: Əziz Mirəhmədov. Bakı, Günəş, 2014. 264 s.

2. "Azərbaycan publisistikası antologiyası". Tərtib edən: Cəlal Bəydil. "Şərq – Qərb" nəşriyyatı. Bakı, 2007. 688 s.

3. "Əhməd bəy Ağaoğlunun seçilmiş əsərləri". Tərtib edənlər: Əziz Mirəhmədov, Vilayət Quliyev. "Şərq – Qərb" nəşriyyatı. Bakı, 2007. 392 s.

4. "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər)". II hissə. Tərtib edən: Faiq Ələkbərli. "Elm və təhsil" nəşriyyatı. Bakı, 2020. 864 s.

5. "Cümhuriyyət qurucuları". Tərtib edən: Nəriman Yaqublu. "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018. 504 s.

6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası: "Məqalələr -mündəricat". Örnək şəxsiyyət: Əhməd bəy Ağaoğlu mühacir həyatı yaşasa da, azərbaycançılıq ideologiyasının ən məşhur carçılarından olub/ İsmayıl // Şərq.-2014.-15 may.-№84.S.11.

7. "Qərbi Azərbaycan abidələri". Tərtib edən: Əziz Yusif oğlu Ələkbərli. Bakı, Nurlan nəşriyyat, 2007. 272 s.

**Хюрумелек Байрамова**

## АХМАД БЕЙ АГАОГЛУ, ПАТРИОТИЧЕСКИЙ ПЕДАГОГ, ЖИВУЩИЙ СВОБОДОЛЮБИЕМ

**Резюме:** На протяжении всей своей жизни Ахмад Бей Агаоглу работал во имя свободной и благополучной жизни азербайджанского народа. Его статьи, опубликованные в разное время, являются основным источником для изучения общественно-политической ситуации в Азербайджане в конце XIX - начале XX веков. В статье Агаоглу «Слова, слова» он призывает местных тюрков-мусульман к свободе. В другой статье «Правда о событиях в Баку» он попытался разъяснить настоящую правду об исторической вражде между азербайджанцами и армянами.

**Ключевые слова**: Ахмад бек Агаоглу, турок, мусульманин, развитие, панисламист, пантюркист, армянские дашнаки, независимость.

**Hurumelek Bayramova**

## AHMAD BEY AGAOGLU, A PATRIOTIC EDUCATOR WHO LIVED WITH THE LOVE OF FREEDOM

**Summary:** Throughout his life, Ahmad Bey Agaoglu worked for the free and prosperous life of the Azerbaijani people. His articles published at different times serve as the main source for studying the socio-political situation in Azerbaijan in the late 19th and early 20th centuries. In Agaoglu's article "Words, Words", he calls the local Muslim Turkic people for freedom. In another article "The truth about the events in Baku" he tried to clarify the real truth about the historical enmity between Azerbaijanis and Armenians.

**Key words**: Ahmad bey Agaoglu, Turkish, Muslim, development, pan-Islamist, pan-Turkist, Armenian Dashnaks, independence.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02. 01. 2022**

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05. 01. 2022**

**Məqalənin çapa qəbul olunma tarixi: 24. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**